# Azərbaycanın həyatında yeni mərhələ başlayıb

**Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsinin dünya mətbuatı və qlobal siyasi dairələrin əsas müzakirə mövzusu olması heç də təsadüfi deyil. Dövlətimizin başçısı geniş müsahibəsində bütün parametrlər üzrə ötən dövrü qiymətləndirdi, prioritetləri bəyan etdi.**

Müsahibədə əsas hədəflərin Qarabağın bərpası, Böyük qayıdış prosesinin davam etdirilməsi, Zəngəzur dəhlizinin açılması və ölkənin sosial-iqtisadi inkişafı, əhalinin rifahının daha da yaxşılaşdırılması olduğunu qeyd edən Prezident bu istiqamətdə atılacaq addımlar barədə ətraflı məlumatlar verdi.

Qlobal siyasətlə bağlı dünyada baş verən geosiyasi proseslərə aid fikirlərini konkret şəkildə açıqlayan dövlətimizin başçısı əsas hədəflər haqqında ətraflı danışaraq bir daha bəyan etdi ki, xarici siyasət üzrə daim qardaş Türkiyə ilə birgə addımlayacağıq.

Dövlətimizin başçısı müsahibəsində geosiyasi və geoiqtisadi məsələlərin təhlilini verərək müasir qlobal nizamda Azərbaycanın yerini və rolunu aydın şəkildə göstərdi. Respublikamızın nəqliyyat-kommunikasiya qovşağına, Avrasiyada enerji təhlükəsizliyinin təmin olunmasında açar dövlətə çevrildiyini, milli maraqlarının müdafiəsi üçün hər şeyi gözə alan ölkə olduğu reallıqlarını beynəlxalq aləmə bir daha çatdırdı. Dünyanın bu günü və gələcəyi, bu fonda Azərbaycanın yeri və rolu barədə də aydın təsəvvür formalaşdırdı. Prezident müsahibəsində qeyd etdi ki, hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ən mühüm məqam isə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasıdır. Ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Azərbaycanın həyatında yeni mərhələ başlayıb.

Ölkəmizin qlobal uğurlarından danışarkən Prezident qeyd etmişdir: "Bizim üçün COP29 böyük bir çağırış və böyük imkan idi. Bizim vəzifəmiz bu çağırışı uğura çevirməkdən ibarət idi. Prezident xüsusi olaraq vurğuladı ki, Azərbaycan istixana qazlarının emissiyası baxımından o qədər də böyük paya sahib deyil və bu işdə dünyanın bir araya gəlməsində mühüm rol oynaya bilməz. Lakin hesab etdik ki, beynəlxalq təşkilatlarda fəaliyyət təcrübəsi və şaxələndirilmiş xarici siyasət bizə körpülər qurmaqda yardımçı olacaq. Yəni biz hazırlıq işlərinə başladıq və Qlobal Cənub çərçivəsində olduqca fəal iş apardıq. Biz 4 il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişik. Bu, böyük uğur idi və üzv dövlətlərin yekdil qərarı ilə bizim sədrliyimiz daha bir il uzadıldı. Eyni zamanda Avropa siyasətində fəal iştirak edən bir ölkə kimi Azərbaycan Avropa İttifaqının 10 üzv ölkəsi ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb və qəbul edib. Dövlətimizin başçısı qeyd etdi ki, əvvəlki COP-lardan fərqli olaraq hazırlıq üçün 2 il deyil, cəmi 11 ay vaxtımız var idi. Biz stadion və onun ətrafında nəhəng qurğular inşa etməli idik - bu, 200 min kvadratmetrə yaxın qapalı məkan idi. Tədbirin təşkilatçılığı hər kəsdə məmnunluq doğurdu".

## COP29 Azərbaycanın uğur hekayəsi oldu

Müsahibəsində antiazərbaycançı qüvvələrin riyakar niyyətlərinə münasibət bildirən dövlətimizin başçısı açıqlayıb ki, gözləmədiyimiz problem COP29-u siyasi motivlər səbəbindən boykot etmək cəhdləri idi. Bu, olduqca gözlənilməz idi. Bu tədbirə evsahibliyi etmiş heç bir ölkə bu dərəcədə müqavimətə rast gəlməmişdir. Lakin biz bunun da öhdəsindən gələ bildik. Boykot uğursuz oldu. Baxmayaraq ki, bəzi ölkələr, xüsusilə də Fransa əlindən gələni edirdi ki, tədbiri gözdən salsın.

Avropa Komissiyasının prezidentinin COP29-da iştirak etməməsinə münasibət bildirən dövlətimizin başçısı vurğulamışdır: "Bildiyimə görə bu, Avropa Komissiyasının prezidentinin iştirak etmədiyi ilk COP oldu. Halbuki onun iştirakı bir neçə ay əvvəl artıq təsdiq edilmişdi.

COP29-un təşkilat komitəsi Avropa Komissiyası ilə təmas qurdu və qarşı tərəfə bildirdi ki, COP iki həftə ərzində keçirilir və səfər etmək üçün kifayət qədər vaxt var. Yeri gəlmişkən, BMT-nin Baş katibi iki dəfə səfər etdi - tədbirin açılışında və bağlanışında. Ancaq yenə də bu mesaja Avropa Komissiyası tərəfindən əhəmiyyət verilmədi. Əlbəttə bu, COP29-un keçirilməsinə xələl gətirmədi, ancaq COP-a üzv olan tərəf kimi Avropa Komissiyasının iştirak etməməsi çoxsaylı suallar doğurur. Buna baxmayaraq, təşkilatçılıq baxımından bu, həqiqətən də, uğur hekayəsi oldu".

Dövlətimizin başçısı COP29-un uğurlu olduğunu əsaslandırarkən xüsusi olaraq bildirib ki, COP-un əsas mövzularından biri maliyyələşmə ilə bağlı idi. 1 trilyon dollar civarında gözləntilər var idi, ancaq bu, tamamilə qeyri-real rəqəm idi. Nailiyyət isə ondan ibarət oldu ki, biz qarşıdan gələn illər üçün nəzərdə tutulmuş məbləği 3 dəfə artıra bildik. Çünki COP29-dan əvvəl razılaşdırılmış rəqəm 100 milyard dollar idi. Burada - Bakıda biz onu 300 milyard dollara çatdırdıq: "Yəni kimsə iddia edirsə ki, bu, uğursuzluq idi, bu, ədalətsizlikdir. Bu, nailiyyət idi və bu, gələcək üçün bir miras oldu.

Bundan başqa, mühüm təşəbbüslər oldu - Azərbaycanın irəli sürdüyü təşəbbüslərin sayı 14 idi. Onların hamısını sadalamaq istəmirəm. Lakin bu, bizim bu məsələyə nə qədər ciddi yanaşdığımızı göstərir.

Bizim üçün daha bir mühüm amil ölkənin təqdimatı idi. Bizim regionda hələ buna bənzər, bu qədər qonağın iştirak etdiyi ikinci belə tədbir keçirilməyib. Bu, ölkənin təqdimatı idi. Mənim görüşdüyüm və ölkəmizə ilk dəfə səfər edənlərin hamısı gördüklərinin onlarda dərin təəssürat yaratdığını söyləyirdilər".

Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra Fransa inadla Cənubi Qafqazda regional sabitliyi pozmağa çalışır. Rəsmi Paris Azərbaycanın dəfələrlə etdiyi çağırışlara məhəl qoymayaraq Ermənistanda revanşist əhvali-ruhiyyəni qızışdırmağa, bu ölkəyə hərbi dəstək verməyə və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını əngəlləməyə çalışır.

44 günlük Vətən müharibəsindən sonra Fransa Ermənistanın müasir silahla təchizatına xüsusi diqqət ayırır. Fransa nəinki Ermənistana silah satışı həyata keçirir, islahat vədi verir, artıq birgə silah istehsalını da müzakirə edir. Mətbuatda Fransanın "Safran Group" şirkətinin Ermənistanla birgə silah və komponentlərinin istehsalına başlamağı planlaşdırması xəbəri də yayılıb. Şirkətin aviasiya komponentləri, görmə cihazları və pilotsuz uçuş aparatları (PUA) istehsal etdiyini nəzərə aldıqda, əməkdaşlığın hansı istiqamətlərdə gedəcəyi aydın olur. Fransanın Cənubi Qafqaza nüfuz etməsi üçün istifadə olunan əsas element isə Azərbaycan-Ermənistan şərti sərhədinə yerləşdirilən Avropa İttifaqının monitorinq missiyasıdır. Məsələnin qəribə tərəfi, Azərbaycanla Ermənistan arasında sərhəddə sabitlik möhkəmləndikcə, sülh danışıqları davam etdikdə, missiyanın kontingentinin genişlənməsindədir. Missiyanın tərkibi də şəffaf deyil. Buraya Fransa kəşfiyyatına, güc strukturlarında xidmət edən şəxslər daxildir. 2023-cü ilin fevralında Ermənistana yerləşdirilən missiya Azərbaycanla sərhəddə sabitlik və təhlükəsizlik şüarı altında fəaliyyətini genişləndirir.

Dövlətimizin başçısı sülh müqaviləsi ilə bağlı Azərbaycanın bütün şərtlərinin qəbul ediləcəyinə ümidvar olduğunu bildirib. Prezident İlham Əliyev deyib ki, əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil. Bu imzalanmadan da biz yaşaya və öz siyasətimizi apara bilərik. Ermənistan tərəfinə hər şeyi, o cümlədən dünyadakı geosiyasi dəyişiklikləri yaxşı ölçüb-biçməyi məsləhət görən Azərbaycan Prezidenti əlavə edib: "Onların yaxın dostları siyasi səhnədən biabırçılıqla silinirlər. Bax, dünən xəbər gəldi ki, Ermənistanın və Paşinyanın yaxın dostu cənab Trüdo da vəzifədən getməli oldu. Həmin bu ölkə ki, İkinci Qarabağ müharibəsi dövründə və ondan sonrakı dövrdə qatı anti-Azərbaycan mövqeyində idi, heç Fransadan çox da uzağa getmir. Fransaya gəldikdə, indi orada siyasi səhnədə nələr baş verir? Hər kəs özü görür".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 11 yanvar (№5).- S.3.